Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Azərbaycanın ikiqat qəhrəmanı – Həzi Aslanov

**Həzi Aslanovun anadan olmasının 110 illiyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı 2020**

**Tərtibçilər:** **Nərgiz Məcidova**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Azərbaycanın ikiqat qəhrəmanı – Həzi Aslanov:** Həzi Aslanovun anadan olmasının 110 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. N. Məcidova; S. Əhmədova, ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2020. – 27 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

**Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2020-ci ilin yanvar ayında görkəmli hərbi xadim, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Əhəd oğlu Aslanovun anadan olmasının 110 illiyi tamam olur. Bəşəriyyətin yaddaşına ən dağıdıcı müharibə kimi yazılmış İkinci Dünya müharibəsi zamanı faşizm əleyhinə mübarizə aparılmasında və insanlığın qorxunc nasizm təhlükəsindən xilas edilməsində Azərbaycan xalqının da böyük xidmətləri vardır. 1941–1945-ci illərdə Azərbaycanın altı yüz mindən artıq övladı müharibəyə yollanaraq müxtəlif cəbhələrdə vuruşmuş, Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmişdir.

Xalqımızın igid oğulları sırasında general Həzi Aslanovun qəhrəmanlığın rəmzinə çevrilmiş adı dərin ehtiramla çəkilir. Dünyanın faşizmdən qurtulması uğrunda ağır döyüşlərdə Həzi Aslanov mahir hərbi sərkərdə istedadı nümayiş etdirmiş və hərb salnaməsində yeni parlaq səhifələr açmışdır. Onun göstərdiyi misilsiz şücaət və başçılıq etdiyi tank alayının müstəsna rəşadəti torpaqlarımızın işğaldan azad edilməsinə hər an hazır olan Azərbaycan Ordusunun bütün şəxsi heyəti üçün əsl qəhrəmanlıq nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsində xüsusi əhəmiyyətini nəzərə alaraq, Azərbaycan xalqının cəsur övladı Həzi Aslanovun anadan olmasının 110-cu ildönümünün layiqincə qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun 110 illiyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 dekabr 2019-cu il.

## Tərtibçidən

Tarixdə elə şəxsiyyətlər var ki, illər, qərinələr ötdükcə haqqında əfsanələr yaranır, söz ustaları onların barəsində dastanlar yaradır, bəstəkarlar mahnılar bəstələyir. İkinci Dünya müharibəsinin əfsanəvi qəhrəmanı Hitler qoşunlarına qarşı vuruşlarında yüksək sərkərdəlik məharəti göstərərək Azərbaycanımızın tarixinə şərəfli səhifələr yazmış general Həzi Aslanov belə nadir şəxsiyyətlərdəndir.

Bəşər tarixində 50 milyondan çox insanın həyatına son qoyan İkinci Dünya müharibəsi, tarixdə ən qanlı savaşlardan biri olub Faşizmə qarşı mübarizə aparan yüzlərlə qəhrəman yetişdirmişdir. Azərbaycan xalqı da bu savaşda cəbhəyə 600 mindən çox oğul və qızını yola salmışdır. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmamışdır. Göstərdikləri igidliyə görə isə 42 azərbaycanlı isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. 170 mindən çox əsgər və zabit müxtəlif orden və medallarla təltif edilmişdir. Onların arasında Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmiş Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyalarının ilk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədov olmuşdur. Azərbaycan torpağının şanlı övladı, tank qoşunları general-mayoru Həzi Aslanov isə iki dəfə Sovet İttifaqı Qəhrəmanı olmuşdur. Bu il 2 dəfə Sovet İttifaqı Qəhrəmanı olmuş yeganə azərbaycanlı general-mayoru, 8-ci çağırış Bakı Sovetinin üzvü olan, 1937-ci ildə Ukrayna SSR-ın Obruç şəhər sovetinin deputatı seçilmiş, İkinci dünya müharibəsinə qədər, Sovet Ordusunda, vzvod komandiri, tank rotasının komandiri, əlahiddə tank batalyonu məktəbinin rəisi, batalyon komandirinin tədris-atıcılıq hissə üzrə köməkçisi, batalyon komandiri, 10-cu tank-mühəndis diviziyası

komandirinin texniki hissə üzrə köməkçisi hərbi vəzifələrində çalışmış qəhrəmanımızın 110 illik yubileyi qeyd edilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən ilin dekabrında Azərbaycan xalqının bu cəsur övladı Həzi Aslanovun anadan olmasının 110-cu ildönümünün layiqincə qeyd olunmasını təmin etmək məqsədilə xüsusi Sərəncam imzalamışdır. Sənəddə "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun 110 illiyinə dair tədbirlər planının hazırlanıb həyata keçirilməsi göstərilir. Bundan əvvəldə qəhrəmanın 90 illik yubileyinin təntənəli şəkildə qeyd edilməsi haqqında ümummilli lider Heydər Əliyev də vaxtı ilə sərəncam imzalamışdır. Xalqımızın bu mərd oğlunun yubileyi münasibətilə xüsusi tədbirlər keçirilmişdir. Son verilən fərmana əsasən də uşaqlarla işləyən mədəniyyət müəssisəsi olaraq Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasında da qəhrəmanın yubiley tədbirləri geniş şəkildə ilboyu qeyd ediləcək. Hazırladığımız bu vəsaitdə generalın yubileyi münasibətilə yazılmışdır. Vəsaitin girişində Vətəninin şöhrətini ucaldan generalın keçdiyi həyat yolundan bəhs edilir. MKS-lər, uşaq kitabxanaları, məktəb, lisey kitabxanalarında yubileylə bağlı tədbirlərinin keçirilməsinə kömək məqsədilə keçiriləcək tədbirlər bölməsində geniş tədbir formaları verilmişdir.

## Giriş

Həzi Aslanov 1910-cu il yanvarın 22-də Lənkəran şəhərində kərpic zavodunda işləyən zəhmətkeş Əhəd Aslanovun ailəsində anadan olub. İbtidai təhsilini şəhərin 1 saylı orta məktəbində alan Həzi 13 yaşında atasını itirir və atasının işlədiyi zavodda özüdə fəhlə kimi işləməyə başlayır. Burada gənc yaşlarından zəhmətə alışan Həzi daha çox oxuyub, öyrənməyə çalışır. O, zavoddan 1924-cü il sentyabrın 15-də komsomol putyovkası ilə Zaqafqaziya hərbi hazırlıq məktəbinə göndərilir və həmin il oktyabr ayının 1-dən başlayaraq 1 nömrəli Zaqafqaziya hərbi hazırlıq məktəbində təhsil almağa başlayır. 1926-1927-ci illərdə məktəb gənclər təşkilatının katibi olur. 1929-cu ilin mayında hərbi hazırlıq məktəbini uğurla bitirən Həzi Aslanov avqust ayında Zaqafqaziya Hərbi Dairəsi hərbi şurasının əmri ilə Leninqrada Borisoqlebski-Leninqrad süvari məktəbinə təhsil almağa göndərilir. Məktəbin rəhbərliyi burada Həzini 231-ci əmrlə dərhal kursantlığa qəbul edir. 1931-ci ilin iyununda Həzi Aslanov uğurla buraxılış imtahanını verir və vzvod komandiri rütbəsini qazanır. Aldığı rütbəyə uyğun olaraq Ukrayna şəhərlərindən birinə yerləşən Kotovski adına III Bessarabiya süvari diviziyası 15-ci süvari alayında vzvod komandirliyinə təyin olunur.

20-ci illərin sonu-30-cu illərin əvvəllərində yeni yaradılmış qoşun növləri, xüsusən zirehli-tank və mexanikləşdirilmiş qoşun bölmələrinə başçılıq etmək üçün mütəxəssislərə böyük tələbat duyulduğuna görə, 12-ci avtozirehli-tank divizionunun komandir heyətini təkmilləşdirmək üçün Həzi Aslanovu ən yaxşı komandirlərdən biri kimi zirehli-tank kurslarına göndərirlər. Burada çox qısa müddətə - cəmi bir aya mürəkkəb zirehli-tank texnikasını mənimsəmək, yeni qoşun növünə komandirlik etməyi öyrənmək lazım idi. Bir aya kursu bitirən

general Həzi Aslanov Xarkov avtotraktor emalatxanasına vzvod komandiri təyin edilir. Burada o, 1933-cü ilin mayınadək işləyir. Bununla yanaşı Aslanov burada könüllü sürətdə T-26 və digər kiçik tankları haqqında da öyrənir. 1933-cü ilin iyununda isə 2-ci atıcı diviziyasının xüsusi tank rotasına vzvod komandiri təyin edilir. Daha sonra 60-cı atıcı diviziyanın xüsusi tank batalyonuna keçirilir və burada baş leytenant, tank rotası komandiri kimi 1938-ci ilin fevralınadək çalışır. 1938-ci ilin martında isə o, 60 - cı atıcı diviziyanın xüsusi tank batalyonu məktəbinə əvvəl rəis əvəzi, sonra isə rəis təyin edilir. Daha sonra may ayında Kiyevdəki 3-cü avtonəqliyyat alayının 5-ci batalayonuna təlim-hazırlıq üzrə komandir müavini göndərilir. 1939-cu ilin əvvəlində Həzi Aslanov Kiyev Hərbi Dairəsində yeni yaradılan 4-cü mexanikləşdirilmiş korpusa daxil edilən 10-cu tank diviziyası 10-cu atıcı alayının avtonəqliyyat batalyonuna komandir əvəzi, bir az sonra isə komandir təyin edilir və kapitan rütbəsi alır.

İkinci dünya müharibəsi başlananda Ukraynada xidmət edən Həzi 1939-cu ilin sonunda Finlandiya ilə başlayan hərbi münaqişəylə əlaqədar Kareliyaya göndərilir. Əməliyyatlarda tankçılarla birgə Mannerheym səddini keçməkdə və digər döyüş əməliyyatlarında iştirak edir və Sovet qoşunlarının münaqişədə qələbəsinə kömək olur. Elə bu qələbədən sonra da mart ayının 12-si 1940-cı ildə Aslanov əvvəlki vəzifəsinə - Zoloçev şəhərinə, 10-cu atıcı alayın avtonəqliyyat batalyonunun komandirliyinə qaytarılır. 1940-cı ilin noyabrında isə ona mayor rütbəsi verilir. 1941-ci il iyunun 23-nə keçən gecədə isə alman zirehli qoşunları ilə döyüşdə Həzi öz döyüşçüləri ilə Donbas ətrafında düşmənin şiddətli hücumlarını düz beş ay dəf edir və onu ağır tələfata uğradır. 1941-ci il avqustun əvvəlində tank batalyonu komandirlərindən biri sıradan çıxanda Həzi Aslanov

10-cu tank diviziyası komandirinin əmri ilə onun yerinə keçirilir.

Avqustun ortalarında 10-cu tank diviziyası 6-cı ordunun tərkibinə keçirildikdən sonra almanlar Ukrayna paytaxtına daxil olmağa cəhd edirlər. Bu zaman Həzi Aslanovun rəhbərliyi ilə 20-ci tank alayı 10-cu tank diviziyasının tərkibində Şostka, Baxmaç, Piryatin rayonlarında düşmənin tank hissələri ilə qanlı döyüşlər aparır. Bu döyüşlərdə Həzi sağ ayağından güllə yarası alır, bir dəfə isə qəlpə ilə başından ağır yaralanır. Müdafiədə batalyonun tankları tamam sıradan çıxandan sonra Həzini cəbhədən ehtiyat alaya çağırırlar. 1941-ci il sentyabrın əvvəllərində Həzi təzədən əvvəlki 10-cu atıcı alaya komandirin texniki hissə üzrə müavini təyin edirlər. Bu vəzifədə olarkən o, Piryatin, Axtırka, Boquduxov, Xarkov rayonlarında döyüşür. 1941-ci ilin sonu, 1942-ci ilin əvvəllərində isə Rostov-Don vilayətində, Moskva ətrafında, Tixvin və Leninqrad istiqamətlərində düşmən birləşmələrinə sarsıdıcı zərbələr vurulmasında iştirak edir. Xarkov və Stalinqrad ətrafında gedən döyüşlərdə Həzinin başçılığı ilə 55-ci tank briqadasının tankçıları düşmənə ağır zərbələr endirir, vuruşa-vuruşa 40 km-dən artıq yol gedib Stalinqrad-Salsk dəmir yolunu tutur, almanları Stalinqrad qruplaşmasının əsas magistralından məhrum edirlər. Bu döyüşlərdə generalın rəhbərlik etdiyi tanklar düşmənin xeyli qüvvəsini və texnikasını sıradan çıxardığına görə ilk döyüş təltifini – "Qırmızı ulduz" ordenini alır. Kotelnikovo yaxınlığında gedən döyüşlərdə də Həzinin döyüşçüləri böyük şücaət göstərirlər. Düşmənin 30 əks-hücumunu dəf edirlər. Bir batalyon piyada qoşunu, 30 tankını, 50 avtomobilini sıradan çıxardırlar. Elə Bu döyüşdə göstərdiyi şücaətinə görədə podpolkovnik H.Aslanov 1942-ci il 22 dekabrında Sovet İttifaqı Qəhrəmanı adına layiq görülür. Həzi Aslanovun da olduğu koprus 3-cü Stalinqrad qvardiya

korpusu adına, korpusun tərkibindəki bütün hissələr isə qvardiya titulu ilə mükafatlandırılır və onlara yeni nömrələr verilir. Həzi Aslanovun 55-ci tank alayı isə 41-ci əlahiddə tank alayı adlandırılır.

## Keçiriləcək tədbirlər

Ədəbiyyatımızda, kinomuzda, mədəniyyətimizdə xalqımızın mərd oğullarının qəhrəmanlıq tarixinə həsr olunmuş çox dəyərli əsərlər yazılıb lentə alınıb və səhnələşdirilmişdir. Görkəmli sovet sərkərdəsi, Azərbaycan xalqının qəhrəman oğlu Həzi Aslanov haqqında da bu səpkidə çoxlu kitablar çap olunub, sözlər söylənib, poemalar və şeirlər yazılıb, film və tamaşalar çəkilmişdir. Hansıki qəhrəmanı dəyərləndirənlərdən xalq şairləri – Səməd Vurğun, Süleyman Rüstəm, xalq yazıçılarından Mirzə İbrahimov, Mir Cəlal və başqa böyük sənətkarlarımızın əsərləri vardır. Gənc nəslin hərbi-vətənpərvərlik ruhunda yetişməsində böyük rolu olan belə əsərlərin təbliğində kitabxanaların xüsusi rolu var. Bir uşaq kitabxanası olaraq bu şərəfli və məsuliyyətli işin öhdəsindən kitabxana kollektivi çalışır ki, məsuliyyətlə gəlsin. Kitabxananın, yeniyetmələrin zövqünü nəzərə alaraq torpaqlarımızın 20 faizinin işğal olduğu vaxtda qəhrəmanlığa səsləyən tədbirlərin təbliği günün əsas mövzularındandır. Bu mövzuda kitabxanamız fəaliyyəti ilə cəmiyyətdə vətənpərvərlik hissini artırmaq üçün zəruri işlər həyata keçirir. Burada keçirilən tədbir formalarının qoyuluşu, məzmunu təbliğat vasitəsi olaraq çox əhəmiyyət daşıyır.  Belə tədbirlər adətən şifahi və əyani formada olub, məqsədi istifadəçilərə mütaliənin gözəlliyini göstərmək, oxuculara kitabı sevməyi, mövzuya uyğun olaraq qəhrəmanları tanıdır. Bu işlərin əsası kitab və mütaliə əvəzolunmaz bilik və məlumat mənbəyi hesab olunur hansı ki, kitab mütaliə həqiqətən də tez-tez insanın dostuna və məsləhətçisinə çevrilə bilir. Hər bir kitabxananın fondunda olan

siyasi, mənəvi, tarixi, təhsil və tərbiyə, sahəsindəki uğurlardan, eləcə də mövcud problemlərdən bəhs edən, qəhrəmanlarını tanıdan ədəbiyyatlarla oxucuların nəzərini cəlb etmək olar. Kitabxanada qəhrəmanlığa aid *"Qəhrəmanlar bizim fəxrimizdir", "Milli qəhrəmanlarımız", "Əfsanəvi sərkərdə", "Nəsillərə nümunə", "Şərəfli ömrün tərənnümü" sərlövhəli tematik sərgilər, konfranslar və s. təşkil etmək olar*. Belə sərgilər həmin mövzularda mövcud kitabların oxunuşuna müsbət təsir göstərir. İki dəfə Sovet İttifaqı qəhrəmanı Həzi Aslanovu oxuculara yaxından tanıtmaq üçün "Şərəfli ömrün tərənnümü" sərlövhəli sərginin quruluşu aşağıdakı kimi təşkil edə bilərik:























## Görkəmli şəxslər Həzi Aslanov haqqında

Bu müharibə bir daha təsdiq etdi ki, Azərbaycan xalqı ən ağır sınaqlardan üzüağ çıxmağa, misilsiz şücaət və rəşadət nümunələri göstərməyə qadir olan... qəhrəman xalqdır.

**Ümummilli lider,**
*Heydər Əliyev*

O igid bir döyüşçü idi. Bizim korpusda 28 Sovet İttifaqı Qəhrəmanı var idi. Lakin onların içində nəzərə çarpacaq sima, şübhəsiz ki, Həzi Aslanov idi.

***Marşal Andrey İvanoviçYermenko***
***Xalq qəzeti, 12 sentyabr, 2000***

Siz Cavanşirin, Babəkin əsl varidatını böyüdüb tərbiyə etmisiniz. Onun rəşadəti bizim hər birimizi qələbələrə ruhlandırır. Onun döyüş yolunu biz özümüzə nümunə seçirik.

***əsgər yoldaşlarının anasına məktubundan***
***Komunist, 1970, 22 yanvar***

O bizim qəhrəmanımızdır, o bizim əzizimizdir, o bizim fəxrimizdir.

***Azərbaycan xalqının Vətən müdafiəçilərinə göndərdiyi məktubdan***
***Komunnist, 1970, 22 yanvar***

Həzi çox cəsur komandir kimi tanınmışdır. O ən çətin vəziyyətdən asanlıqla baş çıxarmağı bacarırdı.

***Sovet İttifaqı Qəhrəmanı general mayor***
***M. Rodionov***

## Oxucu konfransı

Həzi Aslanovun yaradıcılığını oxucular arasında təbliğ etmək məqsədilə kitabxanalarda məktəblilərin iştirakı ilə “Əfsanəvi sərkərdə” adlı oxucu konfransı da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunur, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən edilir. Proqramda konfransda çıxış edəcək qonaqların, Həzi Aslanovun həyatı döyüş yolu haqqında məlumatlı insanlar dəvət edilir və çıxış edəcək şagirdlərin adları, mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur.

... Bir-bir azad olur kəndlər, şəhərlər,
Qalxır barıt iyi, səngiyir ara.
Qəlbə dərd artıran acı bir xəbər,
Yayılır bir anda bizim dağlara:
Həzi öz canını...
Yox, yox, yalandır!
O, yenə şığıyır düşmən üstünə.
Qəhrəman ölərmi, o qəhrəmandır,
Eşqi ürəklərdə yaşayır yenə.
Ölməmiş yaşayır o, əslində də,
Ona mahnı deyir sərin küləklər.
İlin yaz fəslində, qış fəslində də,
Üstündə sayrışır təzə çiçəklər.

*Səfərli İslam*

**Konfrans zamanı qəhrəmanın yaradıcılığına yaxından bələd olan insanların çıxışları dinlənilir. Konfransın təxmini planını sizə təqdim edirik:**

**1. Giriş hissə (Əfsanəvi sərkərdə)**

**2. Həzi Aslanovun həyatı və qəhrəmanlığı haqqında kitabxana rəhbərliyinin və qonaqların çıxışları;**

**3. Məktəblilərin Qəhrəmana həsr edilmiş poemalardan parçalar əsasında hazırladıqları kompozisiya;**
**4. Konfransın yekunu: "Həzi Aslanovdan düşməni məhv etməyi öyrənək".**
Kitabxanada qəhrəmanlar, ümumiyyətlə, hərbi vətənpərvərliklə bağlı təbliğat tədbirlərindən sərgilər, əyani məlumat vasitələri, ucadan oxular, şeir və poemaların oxusu, ədəbi-bədii gecələrinin təşkili, müxtəlif əsərlər əsasında hazırlanmış səhnəciklərin göstərilməsi, plakatların hazırlanması və s. daha məqsədəuyğundur. Sovet İttifaqı Qəhrəmanına həsr edilmiş *"Generalın taleyi"* başlıqlı tədbirin təşkili üçün əsas hazırlıq mərhələsində tədbirin istiqaməti təyin edilir. Tutulmuş plana əsasən tədbirin quruluşu və məzmunu müəyyən edilir. İstifadə edilməsi üçün ədəbiyyat seçilir və lazımi kitabların əldə olunması lazım gələrsə digər kitabxanalara müraciət edilir. Bukletlər hazırlamaq üçün müvafiq tövsiyə ədəbiyyat siyahısı tərtib edilir. Əyani vəsaitlərdən yubilyarın plakatı hazırlanır. Bundan əlavə Həzi Aslanovun döyüş yolu haqqında ***"Qəhrəman Həzi"*** sərlövhəsi ilə mühazirə keçirə bilərik. Bu səpkili söhbət, müzakirələrə və s. tədbirlərə qəhrəman haqqında daha çox bilgi verə biləcək tarixçilər, kitab müəllifləri məlumatlı insanlar dəvət edilir. Diskussiyalarda oxuculara öz qəhrəmanları haqqında nə bildiklərini öyrənmək üçün sual-cavab tərtib edilir. Belə suallardan bir neçəsini istifadə etmək üçün veririk:

1. Həzi Aslanov kimdir?

2. Adı çəkilən qəhrəman hansı ölkənin qoşunlarının tərkibində vuruşmuşdur?

3. Kimlərə qarşı müharibədə vuruşmuşdur?

4. Həzi Aslanov neçə dəfə Sovet İttifaqı Qəhrəmanı olmuşdur?

5.İlk dəfə neçənci ildə Sovet İttifaqı Qəhrəmanı olmuşdur?

6. İkinci dəfə bu ada neçənci ildə layiq görülmüşdür?

7. Qəhrəman Həzi Aslanov haqqında çəkilmiş hansı filmlər var?

8. “Qəhrəman Həzi” adlı poemanın müəllifi kimdir?

**Həzi Aslanovun həyatından bəhs edən filmə baxış**

***Kitabxanaçı:*** *Azərbaycanın* kino-sənədlər arxivindəki 1942-ci ilin kinokadrları əsasında çəkilmiş *“Ordenli Azərbaycan”*, *“1944-cü ildə Vilnüs şəhərinin azadlığı uğrunda”*, 1970-ci ildə yaradılmış “General Həzi Aslanov” kinooçerkinə, rejissor Rasim İsmayılovun çəkdiyi “Sizi dünyalar qədər sevirdim” kinossenarisinə həyəcansız baxmaq mümkün deyil. Bu kadrlar çox qiymətlidir. Burada olan kadrlar hər birimizə əziz və doğmadır. Çünki həmişəyaşar qəhrəman Həzi Aslanovun surətini gözlərimiz önündə olduğu kimi canlandırır. 1942-ci ilin bu kadrlarında biz Həzinin böyük peşəkarlıqla döyüşə rəhbərlik etdiyinin şahidi oluruq. Yubilyara həsr edilmiş bu filmlərə kitabxanada baxış keçirə bilərik. Filmə baxış daha maraqla izlənildiyində uşaqlarda qəhrəmanı tanımağa çox şərait yaracaq. Filmin təsiri altında onlarda qəhrəmana bənzəmək istəyəcəklər.

**Həzi Aslanov haqqında oxucularla söhbət**

**Kitabxanaçı:** Dostlar, Böyük Vətən müharibəsi cəbhələrində



hünər və rəşadət göstərmiş, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş sovet döyüşçüsü arasında azərbaycanlı igidlərin adları da vardır. Onlardan Həzi Aslanov, Qəzənfər Əkbərov, Nəcəfqulu Rəfiyev, Cəmil Əhmədov, Adil

Quliyev, Məlik Məhərrəmov və Adil Quliyevdir. Bu gün sizlərlə Vətən uğrunda göstərdiyi igidliyə görə iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş tank qoşunları generalı Həzi Aslanov haqqında danışacağıq.

O, 1910-cu il yanvarın 22-də Lənkəran şəhərində anadan olmuşdur. Hələ gənc yaşlarında zabit olmaq arzusu ilə yaşayan Həzi 1924-cü ildə Zaqafqaziya hərbi hazırlıq məktəbinə daxil olmuşdur. 1931-ci ildə Leninqrad süvari məktəbini bitirmişdir. Onun qəhrəmanlıq salnaməsində məşhur Stalinqrad döyüşləri xüsusi yer tutur. 1942-ci ilin noyabrında Ali Baş Komandan qoşunların 1939-1940-cı illərdə Sovet-Fin müharibəsində iştirak etmişdir. Böyük Vətən müharibəsi başlayanda Həzi Ternopol vilayətində hərbi qulluqda olur. O vaxtlar orada Cənub Qərb, Krım, Cənub Stalinqrad, Belorusiya cəbhələrində vuruşur. Stalinqrad və Kursk döyüşlərində iştirak edir. Komandanlığın döyüş tapşırıqlarını məharətlə yerinə yetirən Həzi Aslanov 1942-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülür. Vətənimizin hitlerçilərə qarşı rəşadətlə vuruşmuş bu qəhrəmanı haqqında daha geniş məlumatları siz kitablardan əldə edə bilərsiniz.

Belə nəşrlərdən biri 2019-cu ildə Dekabrın 3-də Bakıda “Biz




Qələbənin varisləriyik!” beynəlxalq aksiyası çərçivəsində Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində Əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbaninin tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun anadan olmasının 100 illik yubleyinə həsr etdiyi *“İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov”* kitab-albomunu mütaliə edə bilərsiniz.

Qeyd edək ki, kitab-albom müəllifin on illik araşdırmalarının bəhrəsidir. Müəllif bu müddət ərzində bir çox arxiv, muzey və kitabxanaların nadir nüsxələr saxlanan fondlarında işləmişdir. Bu müddətdə müəllif yüzlərlə sənəd, gündəlik, məktub və fotolarla tanış olmuş, sənədli və bədii filmlərə baxmış, müharibə illərinin qəzet- jurnallarını nəzərdən keçirmiş, qəhrəmanın qohumları, Aslanovçu veteranlarla görüşmüş, bir-birindən maraqlı, bu günümüz üçün daha aktual səslənən ibrətamiz xatirələri dinləmişdir.

Nəşrdə müxtəlif illərin fotoları, sənədləri, məqalələri, ədəbiyyat və incəsənət nümunələri və unudulmaz xatirələri işığında ölməz qəhrəmanımızın qısa, lakin mənalı ömür yolu, komandirlik məharəti, əsgəri rəşadət və sücaəti ilə tanış olacaqsınız. Çalışın kitabla tanış olsınız. Bu kitab-albom xalqımızın şanlı oğlu Həzi Aslanovun müqəddəs xatirəsinə hörmət və ehtiramın təcəssümü olmaqla yanaşı, həm də müstəqil Azərbaycanımızın Silahlı Qüvvələri üçün gələcək sərkərdələrin yetişdirilməsi, gənclərin orduya hazırlanması, hərbi peşələrə daha dərindən yiyələnməsi və ata-babaların tarixi döyüş ənənələri ruhunda tərbiyə edilməsi işinə öz töhfəsini verəcəkdir.

### *Qələbənin qazanılmasında iştirak etmiş Azərbaycan oğulları adlı ədəbi-bədii gecə*

Ədəbi-bədii gecə kitabxana tədbirlərindən ən önəmlisi sayılır. Tədbiri hazırlamaq üçün iştirakçılar müəyyən olunur. İştirakçıların seçilməsi işi məktəblərlə birgə həyata keçirilir. Təyin edilən işin tamamından  sonrakı mərhələlərdə otaq və ya zalın tərtibatı qurulur. Zalda  ilk əvvəl yubilyar haqqında plakat asılır, sərgi təşkil edilir. Slaydların, filmlərin, roliklərin nümayişi üçün texniki avadanlıqlar qurulur. Tədbiri aparıcılar açır:

**Aparıcı:** Azərbaycanın hərb tarixində onlarca general və yüksək rütbəli şəxsiyyətlər olmuşdur. O cümlədən 1941-1945-ci illər

müharibəsində xalqımızın bir neçə generalı – Tərlan Əliyarbəyov, Mahmud Əbilov və başqalarının xüsusi qəhrəmanlıqlarını qeyd etmək olar.

**Aparıcı:** Bu gün Lənkəran şəhərində 1910-cu il yanvarın 22- də anadan olan Həzi Əhəd oğlu Aslanovun doğum günüdür.

Dövründə Sovet İttifaqı Marşalı olmuş L. Qovrov 1945-ci ildə "Bakinskiy Raboçiy" qəzetində həmyerlimiz haqqında yazırdı: "Azərbaycanlıların gələcək nəsilləri tank qoşunları general-mayoru Həzi Aslanovun adını ehtiramla çəkəcəklər".

**Aparıcı:** O, öz döyüşçüləri ilə Donbas ətrafında düşmənin şiddətli hücumlarını dəf edir, düşmən dəstələrini ağır təlefata uğradır. 1941-ci ilin dekabrında Moskva ətrafında vuruşmalarda qəhrəmanlığına görə "Qırmızı Ulduz ordeni"nə layiq görülür.

**Aparıcı:** H.Aslanov 1942-ci il dekabrın 22-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülür. 29 dekabr 1942-ci ildə "Bakinskiy raboçiy" qəzetində Həzinin bu yüksək ada layiq görülməsi haqqında anasına ünvanladığı məktubu çap edilmişdir. Məktubda deyilirdi: "Əziz ana! Bu gün mənim üçün böyük bayramdır. Mənə Sovet İttifaqı Qəhrəmanı adının verilməsi xəbərini aldım. Alman işğalçılarını məhv etməklə bu yüksək adı fəxrlə daşımağa söz verirəm. Məndən bizim yerlilərə atəşli salam söylə. Qoy arxa cəbhəni daha da möhkəmləndirsinlər. Sənin oğlun Həzi".

**Aparıcı:** Berezina şəhərini ilk dəfə düşməndən təmizlədiklərinə görə ordu komandanlığının tapşırığını vaxtında yerinə yetirdiyinə görə 35-ci tank qvardiyası 8 dəfə Ali Baş Komandanlığın təşəkkürnaməsinə layiq görülür, komandiri general Həzi Aslanov sərkərdə mükafatı II dərəcəli Suvorov ordeni ilə təltif edilir.

**Aparıcı:** Cəbhədə Həzi Aslanovun qəhrəmanlığı, sərkərdəlik qabiliyyəti Vətən müharibəsi cəbhələrində vuruşan sovet döyüşçülərinin, xüsusi ilə Azərbaycan oğullarını yeni-yeni

igidliklərə ruhlandırır. Azərbaycan xalqının igid oğlu döyüş meydanında həlak oldusa da, xalqın qəlbində əbədi yaşayacaq, heç vaxt unudulmayacaq.

**Aparıcı:** Qəhrəmanın xatirəsinə hörmət olaraq Bakıdakı qəbri üzərində qəhrəmanın abidəsi də ucaldılmışdır. 1969-cu ildə Həzinin vətəni Lənkəranda onun ev-muzeyi açılmış, 1983-cü il mayın 8-də Lənkəran şəhərinin mərkəzində onun boyük heykəli qoyulmuşdur. Bakıdakı küçələrdən və metrostansiyalardan biri Həzi Aslanovun adını daşıyır. Haqqında "General Həzi Aslanov" (1945), "General Aslanov" (1970), "Estafet" (1982), "Sizi dünyalar qədər sevirdim" (1985), "Dəmir atlı cəngavər" (2003) filmləri çəkilmişdir. Bakıda Zabitlər Evi, Zabitlər parkı, Ali Ümumqoşun Məktəbi, bir sıra orta məktəblər, küçələr onun adını daşıyır. Haqqında romanlar, poemalar, povestlər, şeirlər yazılmışdır.




O, el üçün keçdi candan,
O yaşadı insan kimi,
Demə öldü o qəhrəman,
O müqəddəs diləklərdə,
Bir də təmiz ürəklərdə
Yaşayacaq dastan kimi.

Səməd Vurğun

**Aparıcı:** Həzi Aslanova Sovet İttifaqı Qəhrəmanı adı vermək haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanında yazılıb ki, cəbhə komandanlığının döyüş tapşırığını nümunəvi surətdə yerinə yetirdiyinə, bu işdə qəhrəmanlıq və şücaət

göstərdiyinə, ona tabe olan hissələrə bacarıqla və mətanətlə komandanlıq etdiyinə görə Həzi Əhəd oğlu Aslanova Sovet İttifaqı Qəhrəmanı adı verilir.

**Aparıcı:** Həzi Aslanov yeganə qəhramandır ki 2 dəfə Milli Qəhraman adı alıb. Gənc nəslin hərbi-vətənpərvərlik ruhunda yetişməsində böyük örnək olan Həzi Aslanov haqqında yazıçı Zəminə Xınalının yazdığı "Qəhrəman Həzi" poemasından səhnəciyə tamaşa edək:

*Oxucu səhnəyə gəlir:*

***Oxucu:*** *1910-un*
*22 iyun günü*
*Həzi adlı bir körpə*
*Lənkəran şəhərində*
*Dünyaya göz açıbdır.*
*Bu gözəl, bu işıqlı*
*Obada boy atıbdır…*

***Oxucu:*** *14 yaşında ikən ,*
*Cənubi Qafqazdakı*
*Hərbi hazırlıq adlı*
*Məktəbə daxil olmuş.*

***Oxucu:*** *Deyirlər kursant vaxtı*
*Əla qiymət alıbmış.*
*Ona görə komandir*
*Onu evə buraxmış.*
*Yola düşdüyü anda*
*Kursant dostu Aslanı*
*Qəmgin görür sinifdə*
*Aslan sanki ağlayır,*
*Axı imtahandan sən*
*Yaxşı qiymət almısan.*

***Oxucu:*** *Aslan deyir: Ay Həzi,*
*Sən heç nə bilməyirsən*

*Mənim atam-anam yox.*
***Oxucu:****Özünü tənha sanma.*
*Hazırlaş bizə gedək,*
*Daha durma, dayanma,*
*Sözün bitirən kimi*
*Aslan da razı olur.*
***Oxucu:****Kəndə çatanda onlar*
*Nuşu ana Həzini*
*Öpüb bağrına basdı.*
*Aslanı görən kimi*
*Ana xoş təbəssümlə*
*Aslana qucaq açdı.*
***Oxucu:*** *Ananın xoş sözündən*
*Aslan xeyli şad olur*
*Bu kəndə gəlməyi ilə*
*Həzi Aslanova o,*
*Çox-çox minnətdar olur*
Qışın soyuğunda
Samavardan çay süzən
Ana limon doğrayır.
O qədər sevinirdi ki,
Sevincdən ağlayırdı.
***Ana:*** Mən də sənə bi rana
Daha getmə heçyana.
Həzi kimi sən mənə
Deyə bilərsən ana
***Oxucu:*** 1939-da
Minnerheym uğrunda
Həzinin qələbəsi
Sevindirdi hər kəsi
Nuşu ana o, anda
Sevinib, şad olmuşdu.

Ana səsi, nəfəsi
Necə də müqəddəsdir.

***Oxucu:*** 1942-də
Stalinqrad uğrunda
Gərgin döyüş gedirdi.
Oddan-alovdan keçən
Cəsur Həzi Aslanov
"Qəhrəmanlıq adına "
22 dekabrda
Özü layiq görüldü.

***Oxucu:*** Ürəkdən sevinmişdi
Eşidən Nuşu ana
Onun hər qələbəsinə
Əhsən, alqış demişdi.

***Oxucu:*** Onun amalıydı "Yalnız irəli "!
Döyüşdə düşməni məğlub etməli.
Əmr edib deyərmiş
İrəli, əsgərlər, yalnız irəli!
Mənim əsgərlərim öndə getməli.

- 1944-ün
mart ayının 13-ü
Komandanın əmrilə
İgid Həzi Aslanov
"General-mayor" olur.

***Oxucu:*** 1945-in
24 yanvarında
Namərdin gülləsiylə
Həzi bərk yaralandı.
Sinəsindən axan qan
Qara torpağa axdı.
Həzinin bu sevgisi
Vətənin ana adlı

Torpağına qarışdı.
Uzaqda olsada o,
Anaya bəyan oldu.
Gecə yarı yuxudan
Tez təlaşla oyandı,
Həzi, Həzi ay oğlum,
Deyərək çox çağırdı.
Ancaq ananın səsi
Həziyə heç çatmadı.

***Oxucu:*** Yurdumun paytaxtı
Qədim Bakıda
Qəhrəman Həzinin
igid Həzinin
adını daşıyan
Zabitlər Evi
Nə qədər əsgərlər
Zabitlər üçün
Müqəddəs yer olub,

**Aparıcı:** Stalinqrad döyüşlərindən sonra həmyerlimiz Rostov, Toqonraq, Kursk və Oryol, Kiyev və Minsk, Vilnüs və Riqa, həmçinin ölkənin digər böyük şəhərlərinin azad olunmasında yaxından iştirak etmişdir. Bunlar görkəmli sərkərdənin Stalinqrad dastanından sonra başlanmış şanlı döyüş yolunun ikinci qələbə mərhələsi idi. Pribaltikadakı böyük qələbələrdən sonra Həzi Aslanovun briqadası düşməni Qərbə qovmaq, Baltik dənizi sahilindəki torpaqları düşmənlərdən təmizləmək əmrində idi.

**Aparıcı:** Lakin bu Həziyə qismət olmadı. 1945-cil il yanvarın 24-də qələbə bayramına cəmi dörd ay qalmış cəbhə xəttində yoxlama aparan, növbəti döyüş planı hazırlayan Həzi müəmmalı şəkildə həlak olur. O, 35 yaşında əbədiyyətə qovuşur.

**Aparıcı:** Döyüşlərində Həzi iki Lenin, üç "Qızıl bayraq", "Üçüncü dərəcəli Suvorov", "Aleksandr Nevski", "Birinci dərəcəli Vətən müharibəsi", iki "Qızıl Ulduz" ordenləri ilə, "İgidliyə görə", "Moskvanın müdafiəsinə görə", "Stalinqradın müdafiəsinə görə" medalları ilə təltif olunmuşdur. Ən maraqlısı o idi ki, sərkərdə Belorusiya və Pribaltikanın azad edilməsində fərqləndiyinə görə 1944-cü ildə ikinci dəfə "Sovet İttifaqı Qəhrəmanı" adı almağa təqdim olunmuşdur.
**Aparıcı:** Lakin bu məlum olmayan səbəblər üzündən baş tutmamışdır. Yalnız 1991-ci ildə, 47 il sonra Həzi Aslanov layiq görüldüyü adı – Qızıl Ulduzlu Qəhrəman adını ala bildi. Qoyduğu bu qəhrəmanlıq adı ilə öz Vətənini, torpağını atəşin məhəbbətlə sevən Azərbaycanın mərd oğlu, görkəmli sərkərdənin parlaq xatirəsi xalqının qəlbində əbədi yaşayacaqdır.

## Ədəbiyyat siyahısı


*Kitablarda*

**Abbaszadə H.** General : roman. - Bakı : Vətən, 2004. - 382 s.

**Xınalı Z.** Qəhrəman Həzi : poema. – Bakı : Təknur, 2015. – 122 s.

**Həsənəli N.** Həzi Əhəd oğlu Aslanov // Vətənin şöhrətini ucaldanlar. - Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S. 7-23.

**Səfərli İ.** Təzə çiçəklər : General Həzi Aslanovun əziz xatirəsinə // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 185-186.

**Vurğun S.** Qəhrəmanın ölümü : şeir // Seçilmiş əsərləri. 5 cilddə. - Bakı : Şərq-Qərb, 2005. - C. 2. - S. 140.

*Mətbuatda*

**Əliyev Z.** Belorusda şərq motivləri : O, qürbətdə yaşasa da Vətəndən daha artıq seçilib-sayılır... // Qobustan. - 2015. - № 1. - S. 54-56. – Məqalədə Həzi Aslanova həsr olunmuş əsərlər haqqında da məlumat verilir.

**Həzi Aslanov** : Azərbaycanın qızıl ulduzları // Savalan. - 2015. - 15-18 may. - № 34. - S. 2. ; 19-21 may. - № 35. - S. 2.

**Qurbani A.** Qafqaz qartalı : Həzi Aslanov - 105 // Azərbaycan. - 2015. - 25 yanvar. - № 17. - S. 7.

**Səfərova R.** Əbədi şöhrət : Sovet İttifaqı Qəhrəmanı, Azərbaycanlı general-mayor Həzi Aslanov haqqında // Kaspi. - 2015. - 10 iyun. - № 103. - S. 15. ; 11 iyun.- № 104. - S. 15.

***İnternetdə***

https: ordu.az // general-hezi-aslanovun-dogum-gunudur
http://www.anl.az/down/meqale/olaylar/2015/iyun/446271.htm

https://az.wikipedia.org/wiki/Azərbaycanlı_Sovet_İttifaqı
_Qəhrəmanlarınınn_siyahısı

# Azərbaycanın ikiqat qəhrəmanı – Həzi Aslanov

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 06
Çapa imzalanmışdır: 05.03.2020
Tirajı:100
Pulsuz